# NƏZARƏT ÖLÇÜ CİHAZLARI VƏ AVTOMATİKANIN ƏSASLARI (NÖC və Avtomatika)

| | |
|---|---|
| Fənn: | Avtomatlaşdırma |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| Təlimatçılar: | t.e.n Nizami Şəmsəddinov, Cavid Salamov, t.f.d Lətif Misirxanov |

Bu intensiv baza kursları istehsal proseslərinin avtomatlaşdırmasında istifadə olunan nəzarət ölçü cihazları (NÖC), icra mexanizmləri üzrə bilikləri, qazlama, yanğın siqnalizasiyası və yanğınsöndürmə üzrə zəruri cihaz və avadanlıqlar barədə avtomatlaşdırma sahəsindəki mütəxəssislərin səviyyəsinin yüksəldilməsini, neft, qaz sənayesi obyektlərinin avtomatlaşdırılmasının layihələndirilməsinin texniki təminatının həyata keçirilməsinə yardımçı olacaq.

**Nəzərdə tutulur:**

NÖC və Avtomatikanın əsasları kursu avtomatlaşdırma sahəsində istehsalatda çalışan mühəndislər, texnik-operatorlar, habelə layihələndirmə institutlarında işləyən layihəçilər üçün nəzərdə tutulub. Eyni zamanda ali məktəb tələbələri və maqistraturalarda istehsal proseslərinin avtomatıaşdırılması və ölçü texnikası ixtisası üzrə təhsil alan tələbə və maqistrlər üçün də bu kurs praktiki əhəmiyyət kəsb edəcəkdir.

**Öyrəniləcək material:**

- Texnoloji proseslərin avtomatlaşdırılmasında istifadə olunan nəzarət ölçü cihazları;
- İcra mexanizmləri haqda;
- Yanğından və qazlanmadan mühafizə üçün siqnalizasiya sistemləri haqda
- Yanğınsöndürmə sistemləri haqda;
- Videomüşahidə sistemləri haqda.

**Kursun tərkibi:**

1. Avtomatlaşdırmada istifadə olunan əsas nəzarət ölçü cihazları:
   - Temperatur olçən cihazlar;
   - Təzyiq olçən cihazlar;
   - Səviyyə olçən cihazla;r
   - Sıxlıq olçən cihazlar;

- Sərf olçən cihazlar;
- Keyfiyyət olçən cihazlar;
- İkinci cihazlar.

2. İcra mexanizmləri:

- Pnevmatik tənzimləyici klapanlar;
- Elektrik tənzimləyici klapanlar;
- Tənzimləyici klapanların iş prinsipi;
- Təsir istiqmətlərinə görə tənzimləyici klapanların seçilməsi;
- Tənzimləyici klapanların əsas tipləri;
- Klapanların hesablanması üçün proqram təminatı;
- Posisionerlərin iş prinsipi və əsas növləri;
- Kəsici klapanlar.

3. Yanğından və qazlanmadan mühafizə siqnalizasiya sistemləri:

- Yangın aşkar edən detektorlar;
- Qazlanmanı siqnallayan detektorlar;
- Yanğından və qazlanmadan nəzarət qurğuları və sistemləri.

4.Yanğınsöndürmə sistemləri

5. Video müşahidə sistemləri

**Tədrisi aparan təlimçi haqqında:**

1.Şəmsəddinov Nizami Ziyafəddin oğlu

2000-ci ildə Sumqayıt Dövlət Universitetinin "Avtomatika və idarəetmə" fakultəsini bakalavr, 2002-ci ildə isə bu fakultədə " Elektron qurğuları" ixtisası üzrə maqistr dərəcəsi üzrə təhsilini başa vurmuşdur. 2009-cu ildə dissertasiya işini müdafiə edərək, texnika elmləri namizədi almlik dərəcəsinə yiyələnmişdir. 12 elmi məqalənin müəllifidir. 2004-2010-cu illərdə Müdafiə Sənayesi Nazirliyinin "Neftqazavtomat" Elm-istehsalat Müəssisəsində "Elektron cihazları və qurğuları" elmi-tədqiqat labarotoriyasının müdiri vəzifəsində, 2010-cu ildə Qaz İxrac idarəsində metrologiya üzrə mühəndis, 2010-cu ilin noyabr ayından isə "Neftqaelmitədqiqatlayihə" İnstitutunda "Avtomatlaşdırma və İnformasiya Texnologiyaları" şöbəsində rəis müavini vəzifəsində çalışır. Nəzarət və ölçü cihazlarının, icra mexanizimlərinin, nəzarət və idarəetmə qurğuların, proqramlaşdırılan məntiqi kontrollerlərin neft, qaz sənayesi obyektlərinin avtomatlaşdırılması üçün layihələndirilməsində, tətbiq və sazlanması üzrə işlərdə aparıcı mütəxəsis kimi çoxillik təcrübəyə malikdir.

2.Salamov Cavid Oqtay oğlu

1994-cü ildə İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakultəsini bitirmişdir. Hal-hazırda Ukrayna Dovlət mülki-müdafiə Universitetinin Yangın Təhlükəsizliyi Fakultəsində Maqistratura dərəcəsi üzrə (qiyabi) təhsil alır. 1998-ci ildən "Neftqazelmitədqiqatlayihə" İnstitutunda "Avtomatlaşdırma və İnformasiya Texnologiyaları" şöbəsində mühəndis, 2010-cu ildən isə layihənin baş mühəndisi

vəzifəsində çalışır. Nəzarət və ölçü cihazlarının, qazlanma, yanğın siqnalizasiyası və yanğınsöndürmə üzrə nəzarət və idarəetmə qurğularının neft, qaz sənayesi obyektlərinin avtomatlaşdırılması üçün layihələndirilməsində, tətbiq və sazlanması üzrə işlərdə aparıcı mütəxəsis kimi çoxillik təcrübəyə malikdir.

3. Misrixanov Lətif Misirxanoviç

2002-ci ildə Sumqayıt Dövlət Universitetinin "Avtomatika və idarəetmə" fakultəsinin bakalavr, 2004-cü ildə isə bu fakultədə "Texnoloji proseslərin və istehsalatın avtomatlaşdırılması" ixtisası üzrə maqistr dərəcəsi üzrə təhsilini başa vurmuşdur. 2011-ci ildə texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya işini müdafiə etmidir. 11 elmi məqalənin müəllifidir.
2005-2006-cı ildə"Neftqazavtomat" EİM-də "Telemexaniki Komplekslər və Qurğular" Elmi Tədqiqat və Tətbiq şöbəsində mühəndis elektronçu vəzifəsində işləmişdir. 08.2009-cu ildən 2012-ci ilədək "28 May" NQÇİ-nin Çilov adasında "İstehsalat Proseslərin Avtomatlaşdırılması və Nəzarət Ölçü Cihazlarin" sexinin nəzarət ölçü cihazları və atomatika üzrə sazlayıcı vəzifəsində işləmişdir. 2012-ci ildən "Neftqaelmitədqiqatlayihə" İnstitutunda "Avtomatlaşdırma və İnformasiya Texnologiyaları" şöbəsində qrup rəisi vəzifəsində çalışır. Nəzarət və ölçü cihazlarının, icra mexanizimlərinin, nəzarət və idarəetmə qurğularının neft, qaz sənayesi obyektlərinin avtomatlaşdırılması üçün layihələndirilməsində, tətbiq və sazlanması üzrə işlərdə aparıcı mütəxəsis kimi coxillik təcrübəyə malikdir.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a